**DOI: https://doi.org/10.59849/2957-3882.2024.2.79**
**UOT: 327**

# BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ TERRORÇULUQLA MÜBARİZƏNİN SİSTEMLİ XARAKTERİ VƏ ONUN PROBLEMLƏRİ

**İlkin ƏHMƏDZADƏ***

**Açar sözlər:** *BMT, Avropa İttifaqı, ATƏT, NATO, 11 sentyabr terror aktı, beynəlxalq təşkilatlar, beynəlxalq terrorçuluq, anti-terrorizm, separatizm, geosiyasət, münaqişə*

## XÜLASƏ

Müasir dövrdə beynəlxalq terrorçuluqla mübarizənin geosiyasi maraqlar uğrunda mübarizə ilə qarışması dünyanın siyasi mənzərəsini kifayət qədər mürəkkəbləşdirmişdir. Yaranmış vəziyyətdə beynəlxalq terrorizmə qarşı mübarizədə universal və regional beynəlxalq təşkilatların rolu və əhəmiyyəti olduqca aktuallaşmışdır. Bu mübarizənin qərargahı BMT olsa da, Avropa İttifaqı, Avropa Şurası, ATƏT və NATO kimi regional qurumlar da anti-terror fəaliyyətində mühüm rol oynamaqdadırlar. Beynəlxalq terrorizmə qarşı mübarizədə ümumi strateji kursun hazırlanmasında və həyata keçirilməsində bu qurumların birgə fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Məqalədə beynəlxalq və regional təşkilatların anti-terror fəaliyyətinin xüsusiyyətləri, bu mübarizənin sistemli şəkildə aparılmasına imkan verməyən maneələr və ortaya çıxan problemlər praktiki nəticələr nəzərə alınmaqla elmi-siyasi araşdırma obyektinə çevrilmişdir. Müasir dünyanın reallıqları beynəlxalq terrorizmlə mübarizənin mahiyyət, məzmun və xüsusiyyətlərinin əsaslı dəyişikliklərə məruz qaldığını, dövlətlərin soyuq müharibə dövründəkindən daha kəskin şəkildə qruplaşdığını və üz-üzə dayandığını, kütləvi qırğın silahlarından, xüsusilə nüvə silahından istifadənin daha real olduğunu deməyə əsas verir. Görünən odur ki, yaranmış şəraitdə beynəlxalq təhlükəsizliyin təmin edilməsində BMT ilə yanaşı regional təşkilatlar səviyyəsində Avropa İttifaqının, ATƏT-in, NATO-nun, Avropa Şurasının, İƏT-in, Müstəqil Dövlətlər Birliyinin, Afrika İttifaqının, Amerika Dövlətləri Təşkilatının, ASEAN-ın, QİƏT-in və s. qurumların əhəmiyyəti artmaqdadır ki, bunların fəaliyyətinin əlaqələndirilməsi strateji istiqamət səviyyəsinə yüksəldilməlidir.

## Giriş

XXI əsrin ilk iki onilliyi ərzində ABŞ-ın bayrağı altında beynəlxalq terrorizmə qarşı mübarizədə az və ya çox dərəcədə nailiyyətlər əldə olunmuş, BMT və dünyanın regional səviyyəli qurumları tərəfindən terrorizmə qarşı mübarizə sahəsində beynəlxalq-hüquqi bazanın yaradılması yolunda ciddi addımlar atılmış, dünya birliyin üzvləri tərəfindən isə müvafiq milli qanunvericilik aktları qəbul edilmiş və çoxşaxəli anti-terror aktları həyata keçirilmişdi. Bununla belə, 2022-ci ilin fevralında Rusiya-Ukrayna müharibəsinin başlanması, Rusiyanın Xüsusi Hərbi Əməliyyat adı altında Ukraynanın rus əhalisinin kompakt şəkildə yaşadığı əraziləri ilhaq etməsi, 2023-cü ilin noyabrında isə İsrailin HƏMAS-a qarşı hərbi əməliyyatlara start verməsi, hər iki müharibədə mülki əhalinin,

* *Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər kafedrasının doktorantı.*
*Email: diplomatd325@gmail.com*
*Orcid: https://orcid.org/0009-0000-3186-6497*

xüsusilə uşaqların və yaşlı nəslin soyqırımına məruz qalması anti-terror mübarizəsinin mahiyyət və məzmununu əsaslı şəkildə dəyişdi. Məsələ bunda idi ki, müharibə aparan bütün tərəflər və onları dəstəkləyənlər anti-terror əməliyyatı adı altında bir-birlərinə qarşı hibrid müharibə aparırdılar.

Əgər beynəlxalq münasibətlərin tarixi baxımdan problemə yanaşsaq, hələ ötən əsrin əvvəllərində beynəlxalq terrorizmlə mübarizənin beynəlxalq birlik çərçivəsində aparılmasına edilən cəhdlərə rast gələ bilərik. Belə ki, hələ 1937-ci ildə Millətlər Cəmiyyəti tərəfindən terrorun qarşısının alınması və terrorçuların cəzalandırılması haqqında xüsusi Manifest qəbul edilmiş, lakin dövlətlərin fərqli münasibəti üzündən qüvvəyə minməmişdi. Halbuki, 1934-cü ildə Fransanın Xarici işlər naziri L.Bartunun və Rumıniya kralı I Aleksandrın alman faşist kəşfiyyatı tərəfindən Marseldə öldürülməsi az təsadüf edilən hadisələr deyildi (M.:МГИМО 1999, s. 86). Bu terror aktlarından sonra Millətlər Liqası 58 dövlətin razılığına əsasən iki konvensiya qəbul etdi: "Terrorizmin qarşısının alınması və ona qarşı cəzalar haqqında" və "Beynəlxalq cinayət məhkəməsinin təsis edilməsi haqqında" (//https://cyberleninka.ru/article/n/mezhdunarodnye-normativnye-pravovye-akty-ob-otvetstvennosti-za-terroristicheskiy -akt s.131). Alman faşistləri, SSRİ və ABŞ hakimiyyəti siyasi rəqiblərini cismən məhv etmək üçün çoxsaylı terror əməllərini həyata keçirmişdilər. Hazırda Ukrayna, İran, İsrail və bir sıra Yaxın Şərq dövlətləri rejim əleyhdarlarına terror yolu ilə amansız divan tuturlar. ABŞ və Rusiyanın terrorçuluq əməllərini isə saymaqla qurtarmaz.

Beynəlxalq terrorizmlə mübarizədə dünyanın universal və regional qurumlarının fəaliyyəti, qəbul etdikləri qanunvericilik aktları, terrorla mübarizədə qəbul edilmiş və həyata keçirilməkdə olan milli hüquq normaları və onların təfsiri ilə bağlı indiyədək cild-cild kitablar yazılmış, tədqiqatlar aparılmış və hazırda da aparılmaqdadır (Xəlilov S., 2002, s.3-4). Məqsədimiz dünya birlikləri çərçivəsində anti-terror fəaliyyətinin xüsusiyyətlərini araşdırmaq və bu birliklərin fəaliyyətinin koordinasiyalı və sistemli şəkildə apara biləcəkləri mübarizənin problemlərini təhlil etmək, habelə perspektivdə, mümkün gələcəkdə anti-terror sisteminin yaradılması yolları və istiqamətlərinə aydınlıq gətirməkdir.

## I. BMT çərçivəsində terrorçuluqla mübarizə

Müasir dövrdə beynəlxalq terrorçuluğun müxtəlif növləri və formalarının müəyyənləşdirilməsi, hüquqi-siyasi xarakteristikasının verilməsi, fəaliyyət mexanizminin yaradılması, mübarizə üsulları və istiqamətlərinin müəyyən edilərək dövlətlərin bu mübarizəyə cəlb olunması prosesində ağırlıqları və məsuliyyəti BMT və onun icra strukturları daşıyır. Məlum olduğu kimi, terror aktlarının önlənməsi sahəsində BMT Təhlükəsizlik Şurası və Baş Məclisi tərəfindən hal-hazıradək 13 siyasi-hüquqi sənəd hazırlanmış və dünya birliyinin icraatına götürülmüşdür. Bu sənədlərdə terrorla bağlı bir çox məsələlərə aydınlıq gətirilir, onların fəaliyyət dairəsi və mübarizə istiqamətləri açılıb göstərilir ki, bu məsələlərə hava nəqliyyatında, dəniz nəqliyyatında, quru məkanlarda, dənizdəki platformalarda terror aktlarının törədilməsi, qorunan şəxslərlə, girovlarla, miqrantlarla münasibətlər, nüvə materiallarından, plastik partlayıcılardan, texniki vasitələrdən, bomba terrorizmindən istifadə, terror bombardmanları, terrorçuluğun maliyyələşdirilməsi, dəstəklənməsi, terrorçulara sığınacaq verilməsi və s. kimi məsələlər daxildir. BMT sənədlərinin başlıca və ümumi çatışmazlığı terrorizmin vahid tərifi və səciyyəsinin verilməməsidir, hətta elə sənədlər var ki, onlarda terror terminindən belə istifadə olunmur.

Hazırda BMT səviyyəsində terrorizmlə mübarizəyə beynəlxalq təhlükəsizliyin təmin edilməsi kontekstində yanaşılır ki, bu da öz əksini təşkilatın Nizamnaməsində tapmışdır, ilk hüquqi aktlar isə hələ keçən əsrin 60-cı illərinin əvvəllərinə aiddir. "Soyuq müharibə" dövründə planetimizdə baş verən çoxsaylı münaqişələr və bununla bağlı terrorçuluq əməlləri BMT TŞ və Baş Məclisini dönə-dönə bu problemə qayıtmağa və dünya birliyinin üzvlərini bu təhlükəyə qarşı birgə mübarizəyə çağırışlar

etməyə vadar etmişdi və etməkdədir. XX əsrin 90-cı illərindəki məlum hadisələrdən sonra həm terrorun, həm də ona qarşı mübarizənin şiddətləndiyi özünü daha açıq şəkildə göstərməyə başladı. 1996-cı ildən etibarən BMT çərçivəsində Türkiyənin və Hindistanın təklif etdiyi layihələrə əsasən, müzakirələr getdi, terrorizm üçün əsaslı səbəblərin olmadığı, terrorun insan hüquqlarının pozulması olduğu, bu sahədə hərtərəfli sazişin imzalanmasının vacibliyi, dövlətlərin terrorizmi təşviq etməkdən və dəstəkləməkdən çəkinməli olduğunu bildirməsinin məqsədyönlülüyü kimi çağırışlar səslənməyə başladı (Ağar Mehmet, 1996, s. 23-24). Bununla belə, milli azadlıq hərəkatlarının, müstəmləkəçiliyə qarşı aparılan mübarizədə istifadə edilən üsulların, irqi ayrı-seçkiliyə, aparteidə qarşı silahlı mübarizə kimi halların terror fəaliyyətinə aid edilməməsi terrorizmə qarşı beynəlxalq səviyyədə ümumi platformanın hazırlanmasına və həyata keçirilməsinə imkan vermədi.

Beynəlxalq terrorizmə qarşı BMT səviyyəsində qlobal mübarizənin başlanması ABŞ-da baş vermiş 2001-ci il 11 sentyabr terror aktları ilə bağlıdır. Belə ki, BMT TŞ 11 sentyabr terror aktından dərhal sonra qəbul etdiyi 1368 (2001) saylı qətnamə ilə bu hücumu pisləmiş və təşkilatın Nizamnaməsindən irəli gələn öhdəliklərinə uyğun olaraq, cavab tədbiri kimi bütün lazımi addımları atmağa başlamışdı, fakt, sənəd və materialların öyrənilməsi göstərir ki, məhz bu dövrdən etibarən beynəlxalq terrorizmin bütün formalarına qarşı anti-terror siyasi-hüquqi aktları və praktiki mübarizə başlamışdı. Bu sırada növbəti addım BMT TŞ-nin 2001-ci il 28 sentyabr tarixli 1373 saylı qətnaməsi olmuşdu ki, bu sənəddə terrorizm yekdilliklə pislənilir, qətnamənin icrasına nəzarət edəcək anti-terror Komitəsinin yaradılması qərara alınırdı. Qətnamənin terrorizmə qarşı kollektiv mübarizənin başlandığını bəyan edən bəndləri xüsusi əhəmiyyətə malik idi və bütün dövlətlər 90 gün ərzində gördüyü tədbirlər barədə bu komitəyə məlumat verməyə dəvət olunurdular (Независимая газета, 16 сентября 2001). Deməli, terrorizmə qarşı kollektiv şəkildə başlanan mübarizəni anti-terrorizm sisteminin qurulmasının başlanğıcı hesab etmək üçün tutarlı siyasi-hüquqi baza yaradılmışdı.

Ümumiyyətlə, BMT qurumlarının (ixtisaslaşmış qurumlar da daxil olmaqla) anti-terror mübarizəsini əks etdirən bütün siyasi-hüquqi sənədləri və mübarizə üsulları bizə imkan verir ki, sabotaj hallarına baxmayaraq, bu mübarizənin sistemli və kollektiv şəkildə aparılması nəticəsinə gələk. Çünki BMT sənədlərinə əsasən, terrorçuluğun bütün formalarının beynəlxalq cinayətkarlığın növlərinə aid edilməsi və pislənməsi, terror əməllərinin tam və dəqiq olmasa da xarakteristikasının verilməsi, terror fəaliyyətinin maliyyələşdirilməsinin qarşısının alınması, terrorçuluq fəaliyyətində istifadə olunacaq iqtisadi resursların dondurulması, terror fəaliyyətinin maliyyələşdirilməsinə yönəlmiş bütün əməliyyatların qadağan edilməsi, terrorçuluq fəaliyyətinin bütün növlərinin passiv və ya aktiv şəkildə dəstəklənməsindən və silah-sursatla təmin edilməsindən, terrorçuluğun qarşısının alınmasına yönəlmiş hər cür fəaliyyətin qarşısının alınması üçün dövlətlər arasında məlumat mübadiləsi də daxil olmaqla fəaliyyətlərin təşkili və həyata keçirilməsi, ehtiyat tədbirlərinin görülməsi, terror fəaliyyətinin planlaşdırılmasında, maliyyələşdirilməsində və hazırlanmasında iştirak edənlərin məsuliyyətə cəlb edilməsi, öz daxili qanunlarında terrorizmi ağır cinayət əməli kimi müəyyən edən tənzimləmənin qəbulu, bir-birinə yardım edən terror fəaliyyətinin dəstəklənməsi və maliyyələşdirilməsi ilə bağlı istintaq və məhkəmə proseslərində ən yüksək səviyyəli mütəxəssislərin iştirakının vacibliyi öz təsdiqini tapmışdı. BMT sənədlərində habelə, terrorçu qrupların keçid yollarının bağlanması, güclü sərhəd nəzarətinin həyata keçirilməsi, terrorçu qrupların, saxta sənədlərin, həssas maddələrin, rabitə vasitələrinin ötürülməsi ilə bağlı məlumat mübadiləsinin intensivləşdirilməsi və sürətləndirilməsi, terror texnologiyaları, kütləvi qırğın silahları, beynəlxalq terrorizmin narkotik ticarəti və çirkli pulların yuyulması kimi əməllərin qarşısının alınması sahəsində tədbirləri və nəzarəti daha ciddi və səmərəli şəkildə aparmağı, qaçqın statusu verilməzdən əvvəl sığınacaq axtaran şəxslərin digər cinayətlərlə əlaqəli olub-olmamasını, terror fəaliyyətində iştirak edib-etməməsini və s. araşdırmağın vacibliyi vurğulanırdı (Горбунов К.Г., 2010, s.168-171).

Beynəlxalq terrorizmlə mübarizə problemləri minilliyin əvvəllərindən etibarən BMT-nin gündəmində başlıca yer tutmaqdadır. Zaman keçdikcə bu sahədə ciddi yeniliklər və təkmilləşmələr özünü göstərir. Bu baxımdan BMT Baş katibi A.Quterreşin beynəlxalq terrorizmlə mübarizənin daha məqsədyönlü və sistemli şəkildə aparılması üçün etdiyi təkliflər və əməli fəaliyyət mühüm əhəmiyyətə malikdir. Onun 2017-ci ilin fevralında BMT-nin tərkibində bütün üzvlərin adından çıxış edən Əks-terror İdarəsinin yaradılması təklifi zamanın tələbi ilə bağlı idi. Baş katibin fikrinə görə, "biz bütün BMT sistemi çərçivəsində terrorizmlə mübarizəni prioritet olaraq görməli, habelə missiyamızın zorakı ekstremizmlə mübarizənin qlobal əks-terrorçu strategiyaya müvafiq olduğunu göstərməliyik". Ümumiyyətlə, BMT-nin son yarım əsrlik dövrünün təhlili göstərir ki, beynəlxalq birlik tərəfindən terrorizmə qarşı mübarizə ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməyə başlamış, bu prosesdə regional təşkilatlar və milli dövlətlərlə əməkdaşlığın genişləndirilməsi mühüm yer tutmuşdu. BMT Baş Məclisinin 2006-cı il sentyabrın 8-də elan etdiyi terrorizmə qarşı qlobal mübarizə strategiyası ilə yanaşı "Terrorizmə qarşı tədbirlərin həyata keçirilməsi üzrə hədəf qrupu"nun siyahısı da gündəmə gətirilmişdi. Bu qrupa BMT-nin 38 strukturu və əlaqəli təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Əks-terrorizm Mərkəzi daxil idi (https://musavat.com/news/bmt-terrorizme-muharibe-elan-edir-icmal_418400.html). Strategiyada regional təşkilatların və milli dövlətlərin də qarşısına həyata keçirilməsi zəruri olan vəzifələr qoyulmuşdu.

BMT-nin regional təşkilatlar içərisində Avropa İttifaqı ilə birgə anti-terror fəaliyyəti mühüm əhəmiyyətə malik idi. Bu birliyin anti-terror siyasətində Terrorla mübarizəyə dair 1977-ci il Avropa Konvensiyası başlıca rol oynayırdı. Türkiyənin də zərurət üzündən qoşulduğu bu Konvensiya təyyarələrin qaçırılmasını, təyyarələrə hücumları, diplomatlara və beynəlxalq səviyyədə qorunan şəxslərə hücumları, adam oğurluğunu, girov götürməyi və ya azadlıqların qanunsuz məhdudlaşdırılmasını, bomba (o cümlədən, raket, məktub bombalar), avtomatik odlu silahları qadağan edir və belə əməlləri törətməyi, törətməyə cəhd etməyi və ya onlara ortaq olmağı terror cinayəti hesab edirdi. Terror şou və ya ideologiya deyil, sonu qanla bitən cinayət əməlləridir ki, konkret olaraq siyasi məqsədlərə çatmaq üçün istifadə edilir. Bu baxımdan Konvensiyanın müddəaları 1994-cü ildə BMT Baş Məclisi tərəfindən qəbul edilmiş 49/60 saylı qətnaməyə əlavə Bəyannaməsi ilə üst-üstə düşürdü. Bəyannaməyə görə, "siyasi motivlərlə həyata keçirilən, insan cəmiyyətində və ya müəyyən insanlarda qorxu mühiti yaradacaq cinayət əməlləri siyasi, fəlsəfi, ideoloji, etnik, irqi, dini və ya hər hansı digər əsaslarla əsaslandırıla bilməzdi" (Akillioğlu Tekin, 1996, s.140-142). Bütün siyasi-hüquqi sənədlərdə terrorun ifrat zorakılığı ehtiva etdiyi razılaşdırılsa da, zorakılıq edən şəxsdən asılı olaraq problemə fərqli yanaşmalar tətbiq olunur.

## II. Avropa İttifaqı çərçivəsində terrorçuluqla mübarizə

Aİ-nin gündəmində 11 sentyabr hadisələrindən sonra yer alan başlıca mövzu ABŞ-ın Əfqanıstandakı əməliyyatlar və terrorizmlə mübarizə tədbirləri olmuşdu. Aİ Şurası, habelə üzv ölkələrin liderləri ABŞ-ı tam dəstəklədiklərini bildirərək, həm öz təhlükəsizlikləri, həm də ABŞ-ın istəklərinə uyğun olaraq terrorla mübarizə tədbirlərini görməyə başladıqlarını bildirmiş və ilk olaraq BMT qətnaməsində nəzərdə tutulan 90 gün ərzində fərdi anti-terror fəaliyyət planlarını hazırladıqlarını bəyan etmişdilər. Aİ-nin daha güclü və nüfuzlu dövlətləri 11 sentyabr terrorundan sonra Əfqanıstan əməliyyatında iştirak edərək beynəlxalq aləmdə təsirli olmağa çalışırdılar. Avropa dövlətlərinin tam olaraq reallaşdırmağa nail ola bilmədiyi Ümumi Xarici və Təhlükəsizlik Siyasətinin yenidən gündəmə gətirilməsi, ədliyyə və daxili işlər sahəsində daha sıx əməkdaşlıq qurmaqla İttifaqın möhkəmlənməsi, habelə yaranmış fürsətdən istifadə edərək Aİ-yə inteqrasiyada irəliləyişin əldə edilməsi

perspektivli hədəflərin siyahısında idi. Aİ ölkələri bir-birinin ardınca yeni strateji xətt götürməyə başlamışdılar.

Aİ-nin 2001-ci ilin oktyabrında keçirilən Gent sammitində ABŞ-ın "qanuni" Əfqanıstan əməliyyatını dəstəklədiyi bir daha bəyan edildikdən sonra birliklə ABŞ arasında terrorizmlə mübarizədə ədalət prinsiplərini gözləmək, ekstradisiya sahəsində əməkdaşlığı asanlaşdırmaq üçün addımlar atılmağa başlandı; terror aktları ilə əlaqəli cinayətkarların axtarışı, tapılması və cəzalandırılması, sərhəd nəzarətinin gücləndirilməsi və terrorçuların sərhədlərdən keçməsinin qarşısının alınması, terror məqsədi ilə istifadəsi ehtimal olunan nüvə, bioloji və kimyəvi maddələrin idxalı və ixracına daha sərt nəzarəti təmin etmək üçün yeni qərarlar qəbul olundu.

Aİ-nin 2001-ci ilin dekabrında keçirilən Brüssel sammitində BMT qərarlarına uyğun olaraq anti-terror çərçivə sazişi, habelə terrorçuluq fəaliyyətini cavablandırmaq üçün Həbs və Axtarış Direktivi qəbul edilmişdi. Direktivin tettorla mübarizəyə gətirdiyi ən mühüm yenilik ondan ibarət idi ki, üzv dövlətlər arasında cinayətkarların ekstradisiyası məlum rəsmi ekstradisiya proseduru çərçivəsindən çıxarılır və ölkənin hüquq-mühafizə orqanları üçün etibarlı və məcburi olan standart həbs orderi ilə təmin edilirdi (Eralp Atila, 2002, s. 52-53).

Terrorla mübarizə tədbirlərinin davamı kimi, Avropa İttifaqı Şurası 13 iyun 2002-ci ildə Terrorla Mübarizə üzrə Çərçivə qərarını qəbul etmişdi. Bu qərarda terror cinayətinin əhəmiyyətinə toxunulur və məqsədin terrorla mübarizənin üzv dövlətlər tərəfindən birtərəfli qaydada aparıla bilməməsi, İttifaqın bununla bağlı tədbirlər görəcəyi və üzv dövlətlərin terrora qarşı birgə mübarizə üçün öz daxili qanunlarını bu qərara uyğunlaşdırmaları tələb edilirdi. Bu qərar həm də terror təşkilatı üzvlərinin zamanında müəyyənləşdirilməsi və birlik daxilində sərbəst hərəkətinin qarşısını almaq məqsədi daşıyırdı (Burcu Tuğay, 2016, s.116).

ABŞ-ın rəhbərliyi altında koalisiya qüvvələrinin İraqı işğal etməsi nəticəsində yaranan miqrasiya axınları terrorun yayılmasında mühüm rol oynadı. Məhz bununla əlaqədar olaraq 2005-ci il oktyabrın 3-də "Avropa İttifaqına Üzv Dövlətlərin Xarici Sərhədlərinin İdarə Edilməsi üzrə Operativ Əməkdaşlıq Agentliyi" (Frontex) yaradılmışdı. Agentlik Aİ-yə üzv dövlətlərin qonşuları ilə sərhədlərinin qorunmasını və təhlükəsizliyini təmin etmək məqsədi daşıyırdı. Təhlükəsizlik tədbirlərini gücləndirmək məqsədi ilə noyabrın 30-da "Avropa Təhlükəsizlik Strategiyası"nın bazasında Aİ-nin "Terrorla mübarizə strategiyasi" qəbul edildi. Tədqiqatçılara görə, Strategiya: a) radikallaşmanın və terrorda iştirakın qarşısını almaq üçün profilaktikadır; b) Aİ vətəndaşlarının və infrastrukturun mühafizəsinə yönəlmiş qorunmadır; c) İttifaq daxilində və xaricində terrorçuların izlənməsini, tutulmasını və onların məsuliyyətə cəlb edilməsini nəzərdə tutan monitorinqdir; d) terror aktının nəticələrinin minimuma endirilməsi və böhranların yaxşı idarə olunması ilə bağlı cavabdır. "Cavab" hissəsinə əsasən, terrorizmin mənfi nəticələrinin minimuma endirilməsi, görülən tədbirlərdə qanuniliyin təmin edilməsi və ictimai dəstəyin artırılması diqqət mərkəzinə gətirilirdi (Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2016, s.172). Əslində terrorçuluğa qarşı mübarizə strategiyası dövlətlərin bu istiqamətdə fəaliyyətinin hansı istiqamətlərdə aparılmasının perspektivlərini əks etdirən yol xəritəsinə bərabər sənəd idi.

Görülən tədbirlərə, atılan addımlara və qəbul edilən qərarlara baxmayaraq Avropada terrorçuluq aktları çoxalmaqda davam edirdi ki, bu Aİ-nin BMT ilə birgə çıxış etməsinə daha güclü təsir göstərirdi. Məlum olduğu kimi, minilliyin əvvəllərindən etibarən Avropa ölkələrində baş verən terror aktlarının dinamik şəkildə artdığı müşahidə olunmaqda idi. 2013-2015-ci illərdə Fransada, İtaliyada, Hollandiyada baş verən terror aktlarının təşkilatçısı İŞİD olmuşdu. Terror hücumlarından dərhal sonra Avropada ən yüksək səviyyədə terror xəbərdarlığı elan edilmişdi. Həmin dövrdə - 15-16 noyabr 2015-ci ildə Türkiyədə keçirilən G20 sammitinin gündəmində olan əsas məsələlərindən biri terrorla mübarizə idi. Məhz G20-nin bu Sammitində ilk dəfə olaraq iqtisadi gündəmdən başqa "Qlobal

çağırışlar: Terrorizm və Qaçqın böhrani" adlı sessiya keçirilmişdi. 2016-cı ilin martında Belçikanın paytaxtı Brüsseldə törədilən terror aktlarından sonra İŞİD faktoru yenidən gündəmə gəlmişdi. 2015-ci ilin yanvarında "Charlie Hebdo"ya hücumdan sonrakı iki il ərzində İttifaqın sərhədləri daxilində həyata keçirilən bu hücumlar Birliyə "ərəb baharına" cavab kimi səsləndirilməyə başlanmışdı (Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2016, s.121-132). Qeyd edək ki, hələ 2004-cü il martın 11-də Madriddə baş vermiş terror aktından sonra Aİ Şurası İttifaqın terrorla mübarizə üzrə Koordinatoru vəzifəsini təsis etmişdi ki, koordinator hər 5 ildən bir seçilir və terrorla mübarizə strategiyasının hazırlanmasına rəhbərlik edir və müvafiq tədbirləri digər Avropa qurumları ilə birlikdə həyata keçirirdi. 2024-cü ilin martında Niderlandın nümayəndəsi B.Veqter Aİ-nin yeni koordinatoru seçilmişdi (/https:// www. interfax. ru/ world/948324).

Miqrasiya prosesləri nəticəsində terror əməllərində adı çəkilməyən terrorçuların Avropa ölkələrinə nüfuz etməsi dini terrorizm və ekstremizmin yayılmasına öz pozitiv təsirini göstərməyə başlamışdı. Araşdırmalar göstərirdi ki, Avropa qurumlarının demək olar ki, bütün tədbirlərində terrora qarşı "Terrorizm Avropaya qalib gələ bilməyəcək!" devizi altında silsilə tədbirlər keçirilirdi. 2020-ci il noyabrın 13-də Brüsseldə keçirilən konfransda terrorçuların istəklərinə çata bilməyəcəklərinə dair çağırışlar açıq şəkildə yer almışdı (https://www.dw.com/ru/evrosojuz-nameren-rasshirit-obmen-dannymi-v-borbe-s-terrorizmom/a-55591861). Maraqlıdır ki, Aİ tərəfindən keçirilən tədbirlərdə regionun bütün dövlətlərinin nümayəndələri iştirak edirdilər ki, belə vəziyyət kollektiv qərarların qəbul edilməsinə və ümumi taktiki xəttin müəyyənləşməsinə imkan verirdi.

Avrasiya məkanında əhəmiyyətli geosiyasi mövqeyə malik olan Azərbaycan Respublikası terrorizmdən daha ciddi zərərlər görən dövlət kimi dünyanın bütün universal və regional təşkilatları ilə, xüsusilə Avropa İttifaqı ilə sıx əməkdaşlıq edirdi. Azərbaycan hələ 1996-cı ildə Aİ ilə Strateji Əməkdaşlıq və Tərəfdaşlıq sazişi imzalamış, sonralar isə illər üzrə fərdi Fəaliyyət planlarının həyata keçirilməsinə başlanılmışdı. Azərbaycan-Aİ Fəaliyyət planında yer alan çirkli pulların yuyulması, cinayət yolu ilə əldə edilmiş gəlirlərin Axtarışı, Həbsi və Müsadirəsi haqqında 1990-cı il Avropa Şurası Konvensiyasının həyata keçirilməsi və cinayət yolu ilə əldə edilmiş gəlirlərin axtarışı, həbsi və müsadirəsi və onun təbii davamı olan terrorizmin maliyyələşdirilməsi üzrə yeni siyasi-hüquqi sənədlərin imzalanması kimi məsələləri birgə həll etmək dururdu (https://azerbaijan.az/related-information/193).

Azərbaycanla Aİ arasındakı ikitərəfli münasibətlərdə BMT TŞ-nin 1267/99, 1373/01, 1566/04 və 1624/05 saylı qətnamələrinin yerinə yetirilməsi sahəsində əməkdaşlıq məsələləri, həmçinin, Terrorizmin maliyyələşdirilməsinin qadağan olunması üzrə BMT Konvensiyası da daxil olmaqla bütün müvafiq BMT Konvensiyalarının yerinə yetirilməsi vasitəsilə terrorizmə qarşı çoxtərəfli mübarizədə BMT-nin rolunun gücləndirməsi istiqamətində tərəfdaşlıq edilməsi və ümumi siyasi kursun həyata keçirilməsi reallaşdırılırdı. BMT-nin Ermənistanın və onu beynəlxalq səviyyədə dəstəkləyən qüvvələrin kəskin müqavimətinə baxmayaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi sənədlərin beynəlxalq hüquqi müstəvidə əhəmiyyəti olduqca böyük idi, çünki bu sənədlərdə hələ terrorçuluğa qarşı mübarizənin indiki kimi aktual olmadığı şəraitdə Ermənistan Respublikası dolayısı ilə terror-seperatizm siyasətini dəstəkləməkdə və maliyyələşdirməkdə ittiham edilirdi.

### III. ATƏT çərçivəsində terrorçuluqla mübarizə

Beynəlxalq terrorizmlə mübarizədə BMT ilə əməkdaşlıq edən qurumların içərisində Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı da mühüm rol oynayır. Məlum olduğu kimi, bu qurum soyuq müharibə illərində Şərq-Qərb blokları arasında dialoqu həyata keçirmək məqsədilə yaradılmışdı. Hazırda dünyanın 56 dövlətini öz sıralarında birləşdirən təşkilat soyuq müharibədən sonra ortaya

çıxan böhranların aradan qaldırılması istiqamətində fəaliyyət göstərməkdədir. ATƏT dünya siyasətinə qloballaşma dövrünün təhdid və risklərindən çıxış etməklə münasibət sərgiləyir və onun mövqeyi budur ki, çoxtərəfli əməkdaşlıq olmadan tək bir təşkilat və ya dövlətin müasir təhlükələrin öhdəsindən gəlməsi mümkün deyildir. Bu baxımdan insan hüquqları, əsas azadlıqlar, demokratiya və qanunun aliliyinin müdafiəsi ATƏT-in hərtərəfli təhlükəsizlik konsepsiyasının mərkəzində dayanır. Fikir və inancların fərqliliyi şəraitində dözümsüzlük, aqressiv millətçilik, irqçilik, terrorizm, şovinizm, ksenofobiya və antisemitizm də daxil olmaqla insan hüquq və əsas azadlıqlarının pozulmasına qarşı mübarizə ATƏT-ın bəyan etdiyi prinsiplərin mənbəyi kimi çıxış edir ki, bunların həyata keçirilməsi münaqişələrin qarşısının alınmasını, böhranların idarə edilməsini və konfliktdən sonrakı reabilitasiya və əməkdaşlığı zəruri edir.

ATƏT-in ən mühüm fəaliyyət sahələrindən biri Avropa Konvensiyasını həyata keçirmək və regionda qüvvələr tarazlığının saxlanmasına nəzarət etməkdir. Onun 1999-cu il noyabrın 19-da 54 ölkənin iştirakı ilə İstanbulda keçirilən Zirvə toplantısında qəbul edilmiş “Avropa Təhlükəsizlik Xartiyası” təşkilatın qloballaşma dövründəki prioritetlərini və nail olmaq istədiyi çoxtərəfli əməkdaşlığın dinamikasını ortaya qoyur. Xartiyada XX əsrin son onilliyində ATƏT regionunda mühüm uğurların əldə olunduğu, əvvəllər mövcud olan gərginliyin əməkdaşlıqla əvəz olunduğu, lakin dövlətlər arasında münaqişə təhlükəsinin tam aradan qaldırılmadığı Avropada yeni risk və təhlükələrin yarandığı vurğulanır. ATƏT təhlükələrin cəmiyyətdaxili və dövlətlərarası mübahisə və inamsızlıqlardan yarandığını, təhlükəsizlik və sülhə yalnız vətəndaşlar arasında etimad və dövlətlər arasında əməkdaşlığın təkmilləşdirilməsi yolu ilə nail olunacağını hədəfləyirdi. Qurum regional təhlükəsizliyə təhdidlərin içərisində terrorizm və separatçılığı daha ciddi təhlükələr kimi görürdü. ATƏT ümumilikdə 2011-ci ildən hazırki dövrə qədər terrorizmlə mübarizə haqqında 11 siyasi-hüquqi sənəd qəbul etmişdir. (https://www.oscepa.org/ru/deyatelnost/spetsialnye-komitety-i-rabochie-gruppy/countering-terrorism-2).

ATƏT-in Beynəlxalq terrorizmə qarşı mübarizə Xartiyasında beynəlxalq cinayətkarlığın bütün formalarının, o cümlədən, beynəlxalq terrorizmin, zorakı ekstremizmin, mütəşəkkil cinayətkarlığın, insan alverinin və narkotik vasitələrin qanunsuz dövriyyəsinin getdikcə daha çox təhlükəsizliyə təhdid kimi ortaya çıxdığı bildirilir və “terrorizmin səbəblərindən və hansı formada təzahür etməsindən asılı olmayaraq, qəbuledilməz bir hadisə olduğu” qeyd edilirdi. Sənəddə “biz hər hansı terror fəaliyyətinin hazırlanmasının və maliyyə dəstəyinin qarşısının alınması üçün səylərimizi artıracağıq və terrorçuların bizim ərazimizdə yerləşməsinə imkan verməyəcəyik” - çağırışı edilirdi (https://www.osce.org/ru/secretariat/terrorism).

Təsadüfi deyildi ki, ABŞ-da 11 sentyabr terror aktından sonra BMT TŞ-nin 1373 (2001) saylı qətnaməsinə əsasən, ATƏT-in Parlament Assambleyası 2002-ci ildə 7 nəfər parlament nümayəndəsindən ibarət Terrorizmə qarşı mübarizə üzrə Xüsusi Komitə yaratmış və onun Əsasnaməsini təsdiq etmişdi. ATƏT-in terrorla mübarizədə başlıca hüquqi-siyasi sənədi 2002-ci ildə İstanbulda qəbul edilmiş ATƏT-in terrorizmin qarşısının alınması və ona qarşı mübarizə Xartiyasıdır (/https://www.files.ethz.ch/isn/ 176193/ Russian %20 Factsheet %20of%20the%20O SCE%20Action%20 against%20 Terrorism% 20Unit.pdf).

Yaxın və Orta Şərqdə Qərb imperializminin həyata keçirdiyi yeni müstəmləkəçilik siyasəti bu regionlardan başlanan miqrasiyanı gücləndirməklə yanaşı terrorçuluğun miqyasının genişlənməsinə də ciddi təsir göstərdi ki, nəticədə Türkiyə mühacir axınlarının yolunda keçid məntəqəsinə çevrildi. Təsadüfi deyildi ki, hələ minilliyin başlanğıcından etibarən Türkiyə terrorizmə qarşı beynəlxalq səviyyəli, o cümlədən, ATƏT çərçivəsində tədbirlərin həyata keçirildiyi məkana çevrilmişdi (http://www.bbc.co. uk/turkish/news/story/2008/11/081124_fuller.shtml). Beynəlxalq terrorizmə qarşı mübarizənin beynəlxalq miqyasda və əlaqəli şəkildə həyata keçirilməsi məsələləri ATƏT-in

Parlament Assambleyasının dünyanın parlament nümayəndələri ilə birgə BMT-nin çağırışına əsasən 2024-cü ilin mayında İstanbulda keçirilən görüşünün əsas mövzusu idi. Tədbirdə Asiya, Afrika, Avropa, Latın Amerikası və Yaxın Şərqin 18 ölkəsindən olan 80 nəfərdən yuxarı parlament nümayəndəsi iştirak edirdi. Hibrid formada keçirilən bu tədbirdə terrorizmə qarşı mübarizədə ATƏT-BMT əməkdaşlığının 2024/2025-ci illər üçün həyata keçirəcəyi tədbirlər müəyyənləşdirilmişdi (/https://www.oscepa. org/ru/ novosti-i-multimedia/press-relizy/2024/v-stambule-parlamentarii-obse-obsudili-kontrterroristicheskie-strategii-s-kollegami-parlamentariyami-so-vsego-mira). Beynəlxalq terrorizmə qarşı mübarizənin uğurla həyata keçirilməsinin başlıca şərti bu mübarizənin sistemli, məqsədyönlü və əlaqəli şəkildə aparılmasını tələb edir.

Azərbaycanın ATƏT-ın fəaliyyətində iştirakı dövlət müstəqilliyinin ilk dövrlərindən başlayır. Belə ki, 1992-ci ilin yanvarında ATƏT-ə qoşulan respublikamız həmin ilin iyununda Yekun Aktına imza atmış, bir qədər əvvəldə - mart ayında isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün təşkilatın Minsk Qrupu yaradılmışdı. Bununla belə, bu qrup nə Ermənistanın, nə də Dağlıq Qarabağ separatçılarının azərbaycanlı əhaliyə qarşı soyqırımı və terror-separatizm siyasətlərinə son qoyulması ilə bağlı əməli iş görməmiş, hazırladıqları layihələr Ermənistanın işğalçılıq siyasətinin nəticələrini Azərbaycana qəbul etdirmək xarakteri daşımış, münaqişə dondurulmuş vəziyyətdə saxlanmış, vaxtdan-vaxta tərəflər müvəqqəti atəşkəsə əməl etməyə çağırılmışdı. Əslində isə bu qurum və onun rəhbərləri tərəfindən Ermənistanın qızışdırdığı Dağlıq Qarabağ terrorçu-separatçılarının Azərbaycan torpaqlarında yaratdıqları “ikinci erməni dövləti” dəstəklənmişdi (Güləliyeva A.A, Məmmədov Q.H., 2017, s. 18). Ermənistanın və separatçıların vaxtaşırı Azərbaycana qarşı həyata keçirdikləri hərbi təxribatlar son nəticədə 44 günlük Vətən müharibəsinə gətirib çıxarmışdı ki, işğalçı ünsürlər “dəmir yumruqla” ölkəmizdən qovulmuş, bununla da Cənubi Qafqazda terror-separatizm ocaqlarının başlıcası aradan qaldırılmışdı. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ATƏT-ın 30 ilə yaxın dövr ərzində respublikamıza qarşı yeritdiyi ikili standartlar diplomatiyasının iflası idi.

**IV. NATO çərçivəsində terrorçuluqla mübarizə**

BMT-nin beynəlxalq terrorizmlə mübarizədə xüsusi əhəmiyyət verdiyi mühüm təşkilatlardan biri də NATO hərbi-siyasi bloku idi ki, Alyans da BMT-nin anti-terror fəaliyyətində başlıca əməli orqan sayılırdı. NATO-nun beynəlxalq terrorizmə qarşı mübarizəsi hələ soyuq müharibənin başa çatmasından sonrakı ilk illərə təsadüf edirdi. Belə ki, Şərq blokunun dağılmasından sonra yarana biləcək təhlükələrin yeni formalarının proqnozlaşdırılmasında və onlara qarşı qabaqlayıcı tədbirlərin görülməsində böyük çətinliklər yaşanırdı. Yarım əsrə yaxın davam edən mübarizədən qalib çıxan Qərbin bu yeni mühit və ya yeni dünya nizamı qarşısında yaşadığı tərəddüd, ən təsirli müdafiə təşkilatı olan NATO-nun transformasiya səylərində ən açıq şəkildə müşahidə olunurdu.

İkiqütblü dünya düzəni başa çatdıqdan sonra dövlətlər tərəfindən maliyyələşdirilən beynəlxalq silahlı terror fəaliyyətləri, xüsusilə etnik zəmində qurulan və fəaliyyət göstərən qurumlar, habelə münaqişələr ən mühüm təhlükəsizlik riskləri kimi qəbul edilmişdi. Bu baxımdan BMT-nin, ATƏT-in, Aİ-nin siyasi-hüquqi aktlarında olduğu kimi, NATO-nun da sənədlərində bu terrorizmə qarşı mübarizə məsələlərinin ön plana çıxdığını görmək olar. NATO çərçivəsində ilk dəfə 1991-ci ilin noyabrında Romada keçirilən sammitdə terrorizm alyansın təhlükəsizlik maraqlarına toxunan risklərdən biri kimi qeyd edilmişdi. Blokun 1991-1999-cu illərdə həyata keçirdiyi tədbirlərdə İraq və Yuqoslaviya böhranlarına münasibət mühüm rol oynayırdı, lakin NATO-nun bu böhranlara müdaxiləsi anti-terror əməliyyatları kimi yox, beynəlxalq təhlükəsizliyə təhlükə və təhdidlərin aradan qaldırılması adı altında həyata keçirilmişdi (https://www.mfa.gov.tr/data/ DISPOLITIKA /nato-ru.pdf).

ABŞ-da törədilən terror aktlarından sonra NATO Müqaviləsinin 5-ci maddəsinə əsasən, Vaşinqtonun müdafiəsi məsələsi gündəmə gətirildi. Bu məqsədlə NATO Şurası ABŞ-ın anti-terror əməliyyatlarını dəstəkləmək üçün ilkin olaraq NATO-nun beş AVAKS təyyarəsinin ABŞ-da yerləşdirilməsinə qərar verdi və sonradan tələb əsasında təyyarələrin sayı yeddiyə çatdırıldı. Bununla yanaşı, Şərqi Aralıq dənizində NATO-nun varlığını hiss etdirmək, habelə alyansın qətiyyətini nümayiş etdirmək üçün 26 oktyabr 2001-ci ildə NATO-nun Aralıq dənizindəki daimi dəniz qüvvələrinə əsas gəmiçilik yollarında patrul xidməti həvalə edildi. “Hədəf qrupu” adı ilə fəaliyyətə başlayan bu qüvvələr Süveyş kanalına daxil olan və çıxan 7600-dən çox ticarət gəmilərinə nəzarəti həyata keçirmiş və bölgədəki ABŞ gəmiləri ilə məlumat mübadiləsi aparmışdı. Terror hadisələri ABŞ-a Aralıq dənizində möhkəmlənmək üçün böyük şans verdi (Stratejik Araştırmalar ve Etüt Merkezi (SAREM), 2002, s.5).

Tarix etibarı ilə qısa müddətə NATO-nun anti-terror taktikası əsaslı şəkildə təkmilləşdirildi. BMT-nin 1373 saylı qətnaməsinin tələblərinə uyğun olaraq, 2001-ci il noyabrın 20-21-də Brüsseldə 144-cü NATO Hərbi Komitəsi/Qərargah Rəisləri toplantısında terrora qarşı qısa və uzunmüddətli dövrdə görüləcək hərbi tədbirlərin siyahısı hazırlandı, mahiyyət və məzmununa aydınlıq gətirildi. “İkili yol yanaşması” adlandırılan sənəd üzərində iş sürətlə başa çatdırıldı ki, bu sənəd Alyansın gələcək fəaliyyət strategiyası idi (Stratejik Araştırmalar ve Etüt Merkezi (SAREM), 2002, s.5).

NATO Müqaviləsinin 5-ci bəndinin gündəmə gətirilməsi ABŞ-a operativ tədbirlərin görülməsinə imkan verdi, beynəlxalq terrorizmə qarşı mübarizə tədbirləri olduqca aktuallaşdı, NATO Şurasının qərarı ilə müttəfiqlərə yardım göstərmək üçün 8 hərbi əməliyyatın həyata keçirilməsi planlaşdırıldı ki, bunlardan biri NATO-nun Hava Xəbərdarlığı və Nəzarət Sistemi təyyarələrinin (AVAKS) ABŞ-ın hava məkanında patrul xidməti həyata keçirməsi əməliyyatı idi. “Qartal yardımı” adı altında bu əməliyyat 2001-ci il oktyabrın 9-dan 2002-ci il martın 16-dək NATO hərbi qüvvələri vasitəsi ilə həyata keçirilmişdi (https://nato-pfp.mfa.gov.az/files/file/_1__NATO_M__lumat_ Kitab __.pdf). BMT-NATO əməkdaşlığında 2004-cü ilin martında Nyu-Yorkda keçirilən NATO-BMT dəyirmi masası mühüm əhəmiyyətə malik idi. Görüşdə beynəlxalq terrorizmlə mübarizənin aktual problemləri müzakirə olunmuşdu, əslində NATO “könüllü şəkildə” BMT-nin hərbi alətinə çevrilməkdə idi, BMT anti-terror və sülhyaratma əməliyyatlarını NATO vasitəsi ilə reallaşdırırdı (https://nato-pfp.mfa.gov.az/files/file/_1__NATO_M__lumat_ Kitab __.pdf).

Qeyd edək ki, ABŞ-dakı 11 sentyabr terror aktlarından sonra terrorla mübarizədə fasiləsiz praktiki və siyasi-hüquqi fəaliyyət göstərən NATO bloku qısa müddət ərzində bir neçə xüsusi əhəmiyyətə malik qanunvericilik aktları qəbul etmişdi. Bu baxımdan 2002-ci il Praqa Bəyannaməsi və Terrorizmə qarşı mübarizədə tərəfdaşlığa dair Fəaliyyət planı, 2004-cü ildə Terrorizmdən müdafiə Proqramı, 2006-cı ildə Riqada NATO üzvlərinin Yüksək səviyyəli görüşünün yekunlarına həsr olunmuş Bəyanat mühüm əhəmiyyətə malik idi. Göstərilən siyasi-hüquqi aktları NATO blokunun anti-terror strategiyasının təməl daşları hesab etmək olar (https://elib.bsu.by/bitstream/123456789/222791/1/saperova_sbornik22.pdf). Əhəmiyyətini nəzərə alaraq, NATO-nun 2001-2024-cü illərdə anti-terror fəaliyyətinin və bu sahədə BMT ilə əməkdaşlığının bir sıra məqamlarını elmi-siyasi baxımdan araşdırmağı vacib hesab edirik.

ABŞ-da terror aktlarından sonra BMT-nin çağırışına ilk reaksiya verən beynəlxalq təşkilat NATO olmuşdu. Hələ “Qartal yardımı” əməliyyatının gedişində NATO-nun Brüsseldəki mənzil qərargahında bir sıra taktiki sənədlər hazırlanaraq icraata götürülmüşdü. Alyansın 2002-ci il noyabrın 21-22-də keçirilən Praqa sammitində terrorizm və kütləvi qırğın silahları problemlərinə cavablar axtarılmış, alyansın genişləndirilməsi, Çevik Hücum Qüvvələri və İraqın gələcəyi müzakirə edilmişdi. Sammitdə terror sahəsində müdafiə tədbirləri və terrora qarşı tərəfdaşlığa dair fəaliyyət planı qəbul edilmişdi ki, bunlar Praqa sammitinin Yekun bəyannaməsində öz əksini tapmışdı. Bəyannamədə terrorun bloka üzv ölkələr üçün ciddi və artan təhlükə kimi görüldüyü elan edilmiş,

terrorçuların qarşısını alacaq və onlardan müdafiə olunacaq əks-müdafiə imkanlarının inkişaf etdirilməsi qərara alınmışdı. Sammitin digər əhəmiyyətli sənədi ondan ibarət idi ki, Alyansa üzv ölkələr NATO xaricində əməliyyatları dəstəkləməyə qərar versəydilər, NATO bu əməliyyatları dəstəkləmək və hətta onlara rəhbərlik etmək üçün hərəkətə keçə bilərdi. Məhz bu qərara əsasən, bir qədər sonra, 2003-cü il avqustun 11-də üzv ölkələr Əfqanıstanda İSAF komandanlığını NATO-nun öz üzərinə götürməsi məsələsində razılığa gəlmişdilər.

NATO-nun terrorla mübarizədə atdığı mühüm addımlardan biri də 2004-cü il iyunun 27-də keçirilən İstanbul sammitində olmuşdu. Sammitdə Alyansın “Terrorizmə qarşı müdafiə üzrə İş Proqramı” təsdiq edilərək həyata keçirilməyə başlanmışdı. Sənədin qəbulu ərəfəsində BMT və NATO rəhbərlərinin Nyu-Yorkda görüşü keçirilmişdi. Proqram terror aktlarının qarşısının alınmasına, terrorçuların yerlərinin müəyyən edilməsinə və aşkar edilmiş terrorçuların fəaliyyətinin önlənməsi üçün texniki vasitələrin hazırlanmasına kömək edəcək tədqiqat proqramlarının yaradılmasını nəzərdə tuturdu. Sammitin yekun Bəyannaməsində terrorçuluq və kütləvi qırğın silahlarının yayılması beynəlxalq təhlükəsizliyə ən mühüm təhdid kimi göstərilir və Alyansın üzvləri arasında kəşfiyyat məlumatlarının bölüşdürülməsi, terror təhlükəsi ilə bağlı kəşfiyyat bölməsinin yaradılması, milli müdafiəyə təcili cavab verilməsi kimi məsələlərdə Alyansın görəcəyi tədbirlər yer almışdı. Müəyyən edilmiş tədbirlərə əsasən, üzv ölkələrin müraciəti əsasında AVAKS kimyəvi, bioloji, radioloji və nüvə müdafiə batalyonunun yardıma getməsi qərara alınmışdı ki, məhz bu çərçivədə AVAKS təyyarələri 2004-cü ildə futbol üzrə Avropa çempionatının keçirildiyi yerləri terror hücumlarından qorunmaq üçün patrul xidmətini həyata keçirmişdi (Yunanıstanda keçirilən yay Olimpiya oyunları nəzərdə tutulurdu - müəl.). Sənədə əsasən, Alyansın mübarizə aparacağı on istiqamət müəyyənləşdirilmişdi ki, bunlara mülki və hərbi obyektləri zenit-raket komplekslərinin zərbələrindən qorumaq, körfəz və limanların müdafiəsi, reaktiv mərmilərdən vertalyotların qorunması, əldəqayırma partladıcı maddələrlə mübarizə, kimyəvi, bioloji, nüvə və radioaktiv silahların tapılması və müdafiə tədbirləri, terrorçuların obyektləri, müşahidə və kəşfiyyat texnologiyalarının aşkarlanması, partladıcı qurğu və partlayışların nəticələrinin aradan qaldırılması, həyat əhəmiyyətli obyektlərin müdafiəsi və qeyri-öldürücü vasitələrin hazırlanması daxil idi (https://www.nato.int/ cps/ru/natohq/topics_48801).

Zaman keçdikcə Alyansın fəaliyyətində yeni istiqamətlər yaranır, təxirəsalınmaz tədbirlərin görülməsi lazım gəlirdi. Bu baxımdan 2015-2017-ci illərdə NATO-nun İraq Şam İslam Dövləti (İŞİD) ilə mübarizəyə cəlb olunması beynəlxalq terrorizmə qarşı mübarizənin tərkib hissəsi hesab edilə bilər. Həmin dövrdə NATO Aralıq dənizi regionunda bir neçə dəfə terrorla mübarizəyə həsr olunmuş hərbi təlimlər keçirmişdi. Ekspertlərin fikrincə, mühüm hərbi potensial və gücə malik olan bu təşkilatın köməyi ilə islamçılara, habelə İraq və Suriyada terror qruplarına qarşı uğurla mübarizə aparmaq mümkün olmuşdu. Təsadüfi deyildi ki, 2012-ci ildən etibarən Alyansın müdafiə doktrinası təkmilləşdirilməkdə və yenilənməkdədir. Bununla belə, alyansın bu sahədə fəaliyyəti regiondakı vəziyyətin monitorinqi, milli hava məkanının mühafizəsinin təmin edilməsində Türkiyəyə siyasi dəstək və yardımın göstərilməsi, eləcə də regionun bəzi ölkələrinə təhlükəsizlik sahəsində məsləhətçi yardımın göstərilməsi ilə məhdudlaşırdı, halbuki fəaliyyət konturları olduqca geniş idi (Петров В., Царев Д., 2016, s.8-9).

NATO bloku problemləri üzrə mütəxəssislərin fikrincə, Alyans terrorizmin bütün forma və təzahürlərinə qarşı mübarizənin kollektiv şəkildə aparılmasının vacibliyini hazırda daha çox vurğulamaqdadır. Alyans dövlətləri terrorizmlə mübarizə məsələsində müttəfiqlərlə, xüsusən də vaxtı ilə İŞİD terror qruplaşması ilə mübarizə üzrə Qlobal Koalisiyanın iştirakçısı olan ölkələrlə əməkdaşlıq məsələsini daha qabarıq şəkildə qoymaqdadır. Alyans rəsmilərinə görə, NATO həmçinin digər beynəlxalq aktorlarla lazımi qarşılıqlı əlaqəni davam etdirəcək, beynəlxalq terrorizmə qarşı mübarizəni yeni səviyyəyə yüksəldəcəkdir. Təsadüfi deyil ki, Şimali Atlantika Şurası hazırda

Alyansın anti-terror siyasətini yeniləməyi və bölgədəki tərəfdaşlarla məsləhətləşmələr əsasında NATO-nun mülki-hərbi yardım göstərə biləcəyi sahələrin yenidən qiymətləndirilməsini aparmağı hədəfləmişlər ki, bunun müasir dövrdə beynəlxalq aləmdə yaranmış vəziyyətlə bağlı olması heç kəsdə şübhə doğurmur (https://tass.ru/mezhdunarodnaya-panorama/18249635).

**Nəticə**

Ümumiyyətlə, müasir dünya düzəninin vəziyyəti, dünya dövlətləri arasında qütbləşmənin dərinləşməsi və dünyanın yeni nüfuz dairələrinə bölünməsi uğrunda geosiyasi və hərbi mübarizənin olduqca kəskin xarakter alması beynəlxalq terrorizmə qarşı mübarizənin arxa plana keçməsi nəticəsinə gəlməyə əsas vermir. Hibrid müharibə aparan Rusiya və Ukrayna bir-birlərini terrorizmi dəstəkləməkdə ittiham edirlər. Yaxın Şərqdə alovlanan müharibədə İsrail HƏMAS və "Hizbullah" təşkilatlarına qarşı anti-terror mübarizəsini apardığını bəyan etsə də, qarşı tərəf də eyni məzmunlu bəyanatlarla çıxış edir. Aparılmış müşahidələr və toplanmış materialların elmi-siyasi təhlili göstərir ki, yaranmış müasir beynəlxalq vəziyyətdə universal və regional qurumların əhəmiyyəti günbəgün artmaqdadır, mənafe, maraq və məqsədlərin dünya birliyinin üzvlərini üz-üzə, qarşı-qarşıya qoyduğu bir vaxtda yalnız bu qurumlar dünya birliyinin aktorlarını dəyirmi stolun arxasına toplamağa, kompromisə çağırmağa və barışığa dəvət etməyə qadirdirlər ki, bu baxımdan Azərbaycanda BMT-nin bayrağı altında keçirilən COP-29 beynəlxalq tədbiri qarşıya qoyduğu vəzifələr baxımından həqiqətən də beynəlxalq əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

**Azərbaycan - Avropa İttifaqi /** https://azerbaijan.az/related-information/193

BMT terrorizmə müharibə elan edir/ https://musavat.com/news/bmt-terrorizme-muharibe-elan-edir-icmal_418400.html

Güləliyeva A.A, Məmmədov Q.H. Beynəlxalq münasibətlərin formalaşmasının əsasları və təkamülü (Azərb.Respub. ATƏT-də iştirakı timsalında). Dərs vəsaiti. Bakı, Bakı Universitetinin nəşriyyatı, 2017, 253 s.

NATO Məlumat kitabı /https://nato-pfp.mfa.gov.az/files/file/_1__NATO_M__lumat_ Kitab __.pdf, s. 165-166

Sivilizasiya və terror: Məqalələr toplusu /Elmi red. və ön sözün müəllifi: S. Xəlilov. B.: Azərbaycan Universiteti, 2002, 172 s.

AB-nin uluslararası terrorizm ile mücadile politikası / hazırlayanı Burcu Tuğay. Kocaeli, 2016, s. 116

Ağar, Mehmet. Türkiye'de Terörün Evrimi, Hukuk Devletinde Terör ve Örgütlü Suçla Mücadele, Umut Vakfı Yayınları, İstanbul, 1996, s.23-24

Akillioğlu, Tekin. Terör ve İnsan Hakları, Hukuk Devletinde Terör ve Örgütlü Suçla Mücadele, Umut Vakfı Yayınları, İstanbul 1996, s. 140-142

Eralp, Atila; "Uluslararası Sistem, Güvenlik ve Terör", Dünyada ve Türkiye'de Terör Konferansı (20-24 Mayıs 2002), TCMB Banknot Matbaası, Ankara, 2002, s. 52-53

Graham Fuller: Türkiye ABD planına dahil olmamalı .Güney Yıldız . http://www.bbc.co. uk/turkish/news/story/2008/11/081124_fuller.shtml;

Mücadeleye Yönelik Gelişmeler", Stratejik Araştırmalar ve Etüt Merkezi (SAREM), Yıl: 1, Sayı: 4, Nisan 2002, s.5.

Uluslararasi Terörizm Ve Avrupa Birliği/ Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Yıl: 2016/3, Sayı:25, s. 172

Антитеррористическое подразделение /https://www.files.ethz.ch/isn/ 176193/ Russian %20 Factsheet %20of%20the%20O SCE%20Action%20 against%20 Terrorism% 20Unit.pdf

Борьба с терроризмом/ https://www.osce.org/ru/secretariat/terrorism

В Евросоюзе сменится координатор по борьбе с терроризмом/https:// www. interfax. ru/ world/948324

В Стамбуле Парламентарии ОБСЕ обсудили контртеррористические стратегии с коллегами - парламентариями со всего мира /https://www.oscepa. org/ru/ novosti-i-multimedia/press-relizy/2024/v-stambule-parlamentarii-obse-obsudili-kontrterroristiches kie-strategii-s-kollegami-parlamentariyami-so-vsego-mira

Горбунов, К.Г. Терроризм: социально-психологическое исследование: монография / К.Г. Горбунов. – Омск: Изд-во Ом. гос. ун-та, 2010. 384 с.

Деятельность НАТО по борьбе с международным терроризмом (2001-2007)/ https://elib. bsu.by/bitstream/123456789/222791/1/saperova_sbornik22.pdf

Европа в системе международных отношений. 1917-1945. М.: Международные отношения, 1990, 416 с.

НАТО и борьба с терроризмом /https://www.nato.int/ cps/ru/natohq/topics_ 48801.htm# :~: text=%D0%A3%D1%87%D0%B0%D1%81 %D1%82%D0% B2% D1%83 %D1%8F %20%D0%B2%20%D1%83%D 1%81%D0%B8%D0%B B%D 0%B8%D1%8F%D1%85%20%D0%BC%D0%B5%D0%B6%D0%B4%D1%83%D0%BD%D0%B 0%D1%80%D0%BE%D0%B4%D0%

НАТО заявила о необходимости борьбы с террористическими организациями /11.07.2023/ https://tass.ru/mezhdunarodnaya-panorama/18249635

Павлик М.Ю., Шепелева О.Р. Международные нормативные правовые акты об ответственности за террористический акт //https://cyberleninka.ru/article/n/ mezhdunarodnye-normativnye-pravovye-akty-ob-otvetstvennosti-za-terroristicheskiy -akt s. 131

Петров В., Царев Д. О подходах НАТО к борьбе с терроризмом (2016). Зарубежное военное обозрение. 2016, №4, С. 3-10

Противодействие терроризму / https://www.oscepa.org/ru/deyatelnost/spetsialnye-komitety-i-rabochie-gruppy/countering-terrorism-2

Общая информационная записка НАТО / https://www.mfa.gov.tr/data/ DISPOLITIKA /nato-ru.pdf

Ромашенко С. ЕС намерен расширить обмен данными в борьбе с терроризмом / https://www.dw.com/ru/evrosojuz-nameren-rasshirit-obmen-dannymi-v-borbe-s-terroriz mom/a-55591861

Террористический акт 11 сентября в США указывает на существование всеобщей опасности на миропорядка. Независимая газета, 2001, 16 сентябя

## РЕЗЮМЕ

***Илькин АХМЕДЗАДЕ***

***Системный характер борьбы с терроризмом в рамках международных организаций и ее проблемы***

***Ключевые слова:*** *ООН, Европейский Союз, ОБСЕ, НАТО, террористический акт 11 сентября, международные организации, международный терроризм, борьба с терроризмом, сепаратизм, геополитика, конфликт*

В наше время борьба с международным терроризмом смешивается с борьбой за геополитические интересы, что усложнило мировой политический ландшафт. В сложившейся ситуации роль и значение универсальных и региональных международных организаций в борьбе с международным терроризмом стали весьма актуальными. Хотя штаб-квартирой этой борьбы является ООН, региональные институты, такие как Европейский Союз, Совет Европы, ОБСЕ и НАТО, также играют важную роль в антитеррористической деятельности. Совместная деятельность этих институтов важна в подготовке и реализации общего стратегического курса в борьбе с международным терроризмом. В статье характеристики антитеррористической деятельности международных и региональных организаций, препятствия, не позволяющие вести эту борьбу на системной основе, а также возникающие проблемы стали объектом научно-политического исследования, принимая во внимание учитывать практические результаты. Реальности современного мира говорят о том, что сущность, содержание и особенности борьбы с международным терроризмом претерпели принципиальные изменения, государства более резко сгруппированы и обращены друг к другу, чем во времена «холодной войны», а применение оружия массового поражения, особенно ядерное оружие более реалистично. Представляется, что в нынешних условиях Европейский Союз, ОБСЕ, НАТО, Совет Европы, ОИК, Содружество Независимых Государств, Африканский Союз, Организация американских государств, АСЕАН, ОБСЕ наряду с ООН, играют роль в обеспечении международной безопасности и т.д. значение институтов возрастает настолько, что координация их деятельности поднимается до уровня стратегического направления.

## ABSTRACT

***Ilkin AHMEDZADE***

***Systemic Nature of the Fight Against Terrorism within the Framework of International Organizations and Its Problems***

***Keywords:*** *UN, European Union, OSCE, NATO, September 11 terrorist attack, international organizations, international terrorism, anti-terrorism, separatism, geopolitics, conflict*

In modern times, the intertwining of the fight against international terrorism with the pursuit of geopolitical interests has complicated the global political landscape. In the current situation, the role and importance of both universal and regional international organizations in combating international terrorism have become increasingly relevant. While the United Nations (UN) serves as the central headquarters for this fight, regional organizations such as the European Union (EU), the Council of

Europe, the OSCE, and NATO also play important roles in anti-terrorist activities. The joint efforts of these organizations are of great significance in formulating and implementing a common strategic course to combat international terrorism.

This article examines the characteristics of the anti-terrorist activities of international and regional organizations, the obstacles that prevent these efforts from being carried out systematically, and the challenges that arise, while taking practical results into account. The realities of the modern world suggest that the essence, content, and dynamics of the fight against international terrorism have undergone fundamental changes. States are now more sharply divided and face off against each other with greater intensity than during the Cold War. Furthermore, the potential use of weapons of mass destruction, particularly nuclear weapons, has become a more realistic threat.

It is evident that under current circumstances, alongside the UN, the importance of regional organizations such as the European Union, OSCE, NATO, the Council of Europe, OIC, Commonwealth of Independent States (CIS), African Union, Organization of American States (OAS), ASEAN, BSEC, and others in ensuring international security is increasing. As a result, the coordination of their activities has risen to the level of a strategic priority.